# ƏN ÇOX SORUŞULAN SUALLAR

## (Təkrar ali və ya orta ixtisas təhsili)

**Sual 1. Təkrar ali və ya orta ixtisas təhsilinə necə qeydiyyatdan keçməliyəm?**

Ali və orta ixtisas təhsili müəssisələrinin əlavə təhsilin ali və orta ixtisas təhsili növü üzrə qəbul olmaq istəyən şəxslər öncə **portal.edu.az** saytında qeydiyyatdan keçməlidirlər. Bunun üçün əsas səhifəyə daxil olaraq "**Qeydiyyat**" düyməsinə sıxıb uyğun səhifəyə keçid edin.

**Sual 2. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyatdan keçməliyəm?** Portalda artıq qeydiyyatınız varsa, yenidən qeydiyyatdan keçməyinizə ehtiyac yoxdur.

**Sual 3. Şifrəmi unutmuşam. Necə bərpa etməliyəm?**

Bunun üçün əsas səhifədən "Şifrəni unutdun?" düyməsinə klikləyin və açılan pəncərədə öncə elektron poçt ünvanınızı daxil edin. Açılan növbəti pəncərədə mobil nömrənin son 4 rəqəmini yazın. Nömrəyə gələn təsdiq kodu daxil edildikdən sonra yeni şifrə təyin olunmalıdır.

**Sual 4. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?**

Sistemə daxil olduqdan sonra "Əlavə təhsilə elektron sənəd qəbulu" xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

**Sual 5. Təkrar ali və ya orta ixtisas təhsilinə müraciət etmək üçün hansı qəbul xəttini seçməliyəm?**

Azərbaycan Respublikası vətəndaşları qeyri-DİM xətti ilə, əcnəbilər isə digər müvafiq seçimləri etməlidirlər.

**Sual 6. Şəxsi məlumatlarımı necə doldurmalıyam?**

Azərbaycan Respublikası vətəndaşları üçün şəxsi məlumatlar avtomatik əks olunur. Təsdiq edirsinizsə, növbəti addımı sıxmalısınız. Əcnəbilər isə müvafiq xanalara şəxsi məlumatlarını özləri daxil etməlidirlər.

**Sual 7. Şəxsi məlumatlarımdakı elektron poçt ünvanı və mobil nömrə mənə aid deyil.**

Siz qeydiyyatdan keçərkən istifadə etdiyiniz mobil nömrə və elektron poçt ünvanı şəxsi məlumatlarınızda əks olunub.

**Sual 8. Qəbul məlumatlarımı necə daxil etməliyəm?**

Qəbul olmaq istədiyiniz təhsil pilləsi, təhsil səviyyəsi, müəssisə, ixtisas, təhsilalma və ödəniş formasını seçməlisiniz. İxtisas şifrəsi avtomatik əks olunur.

**Sual 9. Sənədlərimi hansı formatda əlavə edim? Tək-tək bir neçə səhifə yüklənmir.**

Sənədlərinizi PDF formatında və hamısını bir faylda əlavə etməyiniz məsləhət görülür. Bir neçə səhifəni eyni xanaya əlavə edə bilməyəcəksiniz. “Müraciət et” düyməsinə sıxdıqda “Doldurulması vacib sənədlər” xanası qırmızı rəng alır.

**Sual 10. Hansı xanalar məcburidir?**

“Müraciət et” düyməsini sıxdıqda qırmızı rəng alan bütün xanalara tələb olunan sənədi əlavə etməlisiniz.

**Sual 11. Əlavə sənədlər daxil etmək istəyirəm, amma xana sayı azdır.**

“Digər sənəd” xanasının yanındakı + düyməsinə sıxmaqla xana sayını artıra bilərsiniz.

**Sual 12. Sənədlərimin qəbul edilib-edilmədiyini necə öyrənəcəyəm?**

Müraciət etdiyiniz müəssisə sizə sistem və SMS vasitəsilə məlumat göndərəcək. Şəxsi kabinetinizi mütəmadi şəkildə izləməyiniz xahiş olunur.

**Sual 13. Hazırda vətəndaş sonuncu kurs tələbəsidirsə, diplom yerinə hansı sənədi yükləməlidir?**

Əgər təhsil müəssisəsini cari ildə bitirmisinizsə və diplomunuzu əldə etməmisinizsə, bitirdiyiniz təhsil müəssisəsinin təqdim etdiyi bitirmə barədə arayışı yükləyə bilərsiniz.

**Sual 14. Məzun olub, lakin diplom almayan vətəndaşlar diplom yerinə hansı sənədi yükləməlidirlər?**

Həmin vətəndaşlar məzun olduqları müəssisədən bitirmə haqqında arayış aldıqdan sonra onu skanerlənmiş versiyada yükləməlidirlər.

**Sual 15. Əvvəlki təhsil məlumatını necə daxil edim?**

Orta ixtisas təhsili pilləsi və ya bakalavriat təhsilinizə dair diplom məlumatlarını daxil edirsiniz. Müvafiq məlumatlar seçimdə çıxmadıqda “**Digər”** seçməklə əlavə edə bilərsiniz.

**Sual 16. Eyni vaxtda iki müəssisəyə müraciət göndərə bilərəmmi?**

Xeyr, Azərbaycan Respublikası vətəndaşları eyni zamanda yalnız bir müraciət göndərə bilərlər *(əcnəbilər üçün bu qayda istisnadır).*

**Sual 17. Sənədlər hansı formatda yüklənməlidir?**

Sənədlər **JPG, PNG, PDF** olmaqla hər üç formatda yüklənilə bilər.

**Sual 18. Bakalavr diplomu ilə təkrar orta ixtisas təhsilinə qeydiyyat edə bilərəmmi?**

Xeyr, edə bilməzsiniz. Bakalavr diplomu ilə təkrar ali təhsilə, subbakalavr diplomu ilə isə təkrar orta ixtisas təhsilinə müraciət edə bilərsiniz.